Azərbaycan.- 2021.- 29 oktyabr. S. 7.

# Şuşalı-Şuşasız günlərimizin yaşantıları

## "Atam "Şuşanın dağları" mahnısı ilə gələcək nəsillərə yurd sevgisi aşılayırdı"

**Şuşanın azad edilməsi yalnız şuşalıların deyil, Azərbaycan xalqının sevincidir. Mən isə o hisslərimi heç bir sözlə ifadə edə bilmirəm. Ona görə ki, bütünlüklə uşaqlığım Şuşada keçib. Sanki dünyanın müxtəlif ölkələrində olmuşam, Şuşaya illər sonra ilk qədəm basanda keçirdiyim hissləri ifadə edə bilmirəm.**

Bizi sanki Müzəffər Ali Baş Komandanımız başqa bir dünyaya aparmışdı. Heç vaxt düşünməzdim ki, neçə illərdən sonra doğma şəhərim olan Şuşaya gedəcəyəm. Qanadım olsaydı, uçardım. Deyim ki, ancaq mən beləydim?! Yox, hamı sevinirdi. Həmin səfər heç vaxt unudulmayacaq. Şuşaya Azərbaycanımızın sayılıb-seçilən, sevilən ziyalılarının bir qrupu getmişdi. O səfərdə həm də xalqımla fəxr etdim ki, ölkəmin nə qədər ziyalısı var.

Şuşaya girəndə donmuşdum elə bil. Hansı hisslər idi, onu bilmirdim: həm ağlayır, həm də göz yaşları içərisində Allaha dualar, şükürlər edirdim.

Cıdır düzünə getdik. Şuşa mənfur düşmən tərəfindən işğala məruz qalsa da, öz əzəmətini qoynuna sığındığı dağlar kimi qoruyub saxlayırdı!

Atam Xan Şuşunski 1901-ci il avqustun 20-də Şuşada anadan olub. Bu il onun 120 illik yubileydir. Şuşanın işğaldan azad edilməsi onun yubiley ilinə ən gözəl hədiyyə oldu.

Şuşa haqqında ilk mahnını da 1930-cu ildə atam bəstələyib. Mahnının sözləri də, musiqisi də, atama məxsusdur. Mahnıda deyilir:

"Şuşanın dağları, başı dumanlı,
Qırmızı koftalı, yaşıl tumanlı..."

Fikir verirsinizmi, bizim bu gün Şuşamızda da dalğalanan üçrəngli bayrağımızı o, mahnısıyla xalqımıza ərməğan edirdi. Həmin mahnıya görə atamı o dövrdə NKVD-yə dəvət edib soruşublar: "...sovet Şuşasının başı dumanlı olarmı?!"

İndi deyirəm, ata, ruhun şad olsun!

Sanki bir balaca uşağa dönmüşdüm Şuşada. Doğma vətənimizin dilbər guşəsi olan Qarabağımız və onun zümrüd tacı Şuşa şəhərimiz işğaldan azad olunub. Prezidentimizin diplomatiyası, cəsarəti nəticəsində, qəhrəman igidlərimizin qanı, canı bahasına doğma torpaqlarımız işğaldan azad edilib.

Şuşa mənim üçün çox əziz və doğmadır. Demək olar ki, bütün atalı-analı xoşbəxt günlərim - uşaqlıq illərim Şuşada keçib. 1960-cı ildə atam Şuşada Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin yanındakı evi satın almışdı. Hər yay tətil vaxtı - may ayının sonundan sentyabrın əvvəlinə kimi Şuşaya gedərdik. Ora çatmamış Bakıdan qonaqlarımız gələrdi....



Şuşa uca zirvədə duran bir şəhərdir. Gözəl təbiəti var - yaşıl yamacları, büllur bulaqları, şəfalı suları...

Ulu Öndər Heydər Əliyev sovetlər dönəmində Azərbaycanın dahi şairi M.P.Vaqifin məqbərisini Şuşada heç də əbəs yerə inşa etdirməyib. Və həmin tədbirə, yəni məqbərənin açılışına o vaxtlar müttəfiq respublikaların tanınmış mədəniyyət, incəsənət xadimlərini dəvət edib. Ümummilli Lider o vaxt M.P.Vaqifin məqbərəsini orada tikdirməklə bütün dünyaya bəyan edib ki, bir zamanlar burada Qarabağ xanlığı və M.P.Vaqif isə xanın baş veziri olubdur.

Cənab Prezident Qarabağımızı, Şuşamızı, bütünlüklə işğalda illərlə qalan torpaqlarımızı özümüzə qaytarmaqla sanki bütün dünyanı bizə bəxş etdi. Unutmaq olmaz ki, 44 günlük müharibə dövründə dünyanın 30-a yaxın KİV-inə müsahibələr verdi. Biz Prezidentimizlə fəxr edirik, qürur duyuruq ki, o, dünya liderləri arasında böyük nüfuza malikdir.

Mən Mehriban xanım Əliyevanın adını mütləq çəkməliyəm, çünki bu möhtəşəm qələbədə onun da imzası var. İllər boyu Heydər Əliyev Fondu ilə Mehriban xanım dünyanın müxtəlif ölkələrində Azərbaycan xalqının milli-mənəvi dəyərləni - musiqimizi, o cümlədən muğamlarımızı, xalq mahnılarımızı, Qarabağ xanəndələrini təbliğ edərək sanki addım-addım Şuşaya yaxınlaşırdı.

Qarabağımızı, o cümlədən də onun zirvə tacı olan, "Qafqazın konservatoriyası" Şuşanı bizə qanı bahasına qaytaran şəhidlərimizə rəhmət diləyirəm, ruhları qarşısında baş əyirəm. Qazilərimizə Allahdan cansağlığı arzulayıram. Xalqımızla fəxr edirəm. Şuşaya səfərimizlə bağlı fikrimə isə nöqtə qoya bilmirəm...

***Bəyimxanım CAVANŞİROVA (VERDİYEVA),***
***Xan Şuşinski Fondunun prezidenti,***
***Xan Şuşinskinin qızı***